**Mühazirə № 4 (2)**

**Mövzu:**Türk dillərinin quruluşu

**Plan:**

4.2.1.Türk dillərinin morfoloji quruluşu;

4.2.2.Türk dillərinin sintaktik quruluşu.

## 4.2.1.Türk dillərinin morfoloji quruluşu

Türk dillərinin morfolofi quruluşu iltisaqidir.Sözün kökü və şəkilçisi bir-birindən ayrılır.Şəkilçi təbiət etibarı ilə kökə uyğunlaşır.Şəkilçi kökün təsiri altına düşür.Türk dillərində ahəng qanunu qorunduğu üçün sözün kökünə qoşulan şəkilçilər kökdəki saitlərin qalın və incəliyinə görə bir neçə variantda işlənə bilir.

Türk dillərində şəkilçilərin sözdəyişdirici və sözyaratma imkanları genişdir.Bu dillərdə şəkilçilər mənasına görə sözdüzəldici və sözdəyişdirici olurlar.

Türk dillərində hal,mənsubiyyət,şəxs,kəmiyyət,zaman kateqoriyalarının şəkilçiləri dilin morfoloji quruluşunu zənginləşdirir.

*Müasir türk dillərində hal kateqoriyası* belə adlanır: *hal* (Azərb.);*düşüm* (türkmən); *keliş* (uyğur);*boluş* (qaraçay-balkar);*septik* (qazax);*kileş* (tatar);*kelişik* (özbək);*durum* (türk);*cöndömölö* (qırğız);*sepleu* (qaraqalpaq);*xal* (qaqauz) və s.

Müasir türk dillərinin əksəriyyətində ismin altı halı məqbuldur:

Azərbaycan dili:*Adlıq,yiyəlik,yönlük,təsirlik,yerlik,çıxışlıq*.

Türkmən dili:*baş,gelik,yöneliş, eniş, vaqtörün, çıxış*.

Türk dili:*yalin,tamamlayan, yönelme,yükleme,kalma,çıkma*.

Qaqauz dili:*temel,saiblik, dorudak,qösterek,erlik,çıkış.*

Türk dillərində hal şəkilçiləri:

Azərbaycan dili:*-ın,-in,-un,-un,-nın,-nin,-nun,-nün;-a,-ə,-ya,-yə;-ı,-i,-u,-ü;-da,-də;-dan,-dən*

Qaqauz dili:*-ın ,-in, -un,-un,-nın,-nin, -nun, -nün;-a,-ə,-ya,-yə;-ı,-i,-u,-ü,-yı,-yi,-yu,-yü;-da,-də,-ta,-tə;-dan,-dən,-tan,-tən*

Türk dili:*-ın,-in,-un,-un,-nın,-nin,-nun,-nün;-a,-ə,-ya,-yə;-ı,-i,-u,-ü,-yı,-yi,-yu,-yü;-da,-də,-ta,-tə;-dan,-dən,-tan,-tən*

Altay dili:*-nın,-nin,-nun,-nün,-dın,-din,-dun,-dün, -tın,-tin,-tun,-tün;-ğa,-qa,-ğo,-qo,-ka,-ko,-kö;-nı,-ni,-nu,-nü,-dı,-di,-tu,-tü;-da,-də,-do,-dö,-ta,-tə,-to,-tö;-dan,-dən,-don,-dön,-nan,-nən,-non,-nön,-tan,-tən,-ton,-tön*

Qırğız dili:*-nın,-nin,-nun,-nün,-dın,-din,dun,-dün,-tın,-tin,-tun,-tün;-ğa,-qa,-qo,-ka,-ke,-ko,-kö;-nı,-ni,-nu,-nü,-dı,-di,-du,-dü;-tı,-ti,-tu,-tü;-da,-də,-do,-dö,-ta,-tə,-to,-tö;-dan,-dən,-don,-dön,-tan,-tən,-ton,-tön*

Bəzi türk dillərində əlavə iki hal forması da qeyd olunur: birgəlik və çağırış.Yakut dilində altı hal formasından əlavə dörd hal forması da qeyd olunur: xüsusi hal (-da,-də,-do,-dö,-to,-tö,-le.-lo,-lö,-na,-ne,-no,-nö),vasitə halı (-inan,-inen,-unan,-unön), birgəlik halı (-lun,-tun,-dun,-nun),müqayisə halı (-daağar,-laağar,-naağar).

*Müasir türk dillərində mənsubiyyət kateqoriyası* morfoloji (kəndimiz),sintaktik-morfoloji (bizim kəndimiz),sintaktik (bizim kənd) yolla yaranır.

Türk dillərində mənsubiyyət kateqoriyasının müxtəlif adları vardır:

Türkmən dilində:*deqişiqlik* və ya *yönkeme kateqoriyası;* özbək dilində: *eqalik kateqoriyası;*qaqauz dili:*adlıkların saablik forması;*uyğur dilində:*eqilik kateqoriyası;*

Türk dillərində mənsubiyyət şəkilçiləri:

Azərbaycan dili:*-ım,-im,-um,-üm,-m;-ımız,-imiz,-umuz,-ümüz,-mız,-miz,-muz,-müz;-ın,-in,-un,-ün,-n;-ınız,-iniz,-unuz,-ünüz,-nız,-niz,-nuz,-nüz;-ı,-i,-u,-ü,-sı,-si,-su,-sü*

Altay dili:*;-ım,-im,-um,-üm,-m;-bıs,-bis,-bus,-büs,-ıbıs,-ibis,-ubus,-übüs;-ın,-in,-un,-ün,-n;-ğar,-qər,-ğor,-qör,-ığar,-iğər,-uğar,-üqör;-ı,-i,-u,-ü,-zı,-zi,zu,-zü*

Barabin tatarlarının dili:*-ım,-im,-um,-üm,-m;-bıs,-bis,-bus,-büs,-ıbıs ,-ibis,-ubus,-übüs;-ın,-in,-un,-ün,-n;-nar,-nər,-nor,-nör,-ınar,-inər,-unar,-ünör;-ı,-i,-u,-ü,-zı,-zi,zu,-zü*

Başqırd dili:*-ım,-im,-om,-öm,-m;-bız,-biz,-boz,-böz,-ıbız,ibiz,-oboz,-öböz;-ın,-in,-on,-ön,-n;-qız,-qiz,-qoz,-qöz,-ıqız,-iqiz,-oqoz,-öqöz;-ı,-i,-o,-ö;-sı,-si,-so,-sö*

Uyğur dili:*-ım,-im,-um,-üm,-m;-mız,-imiz,-umuz,-ümüz;-ın,-in,-un,-ün,-n;-nlar,-nlər,-ınlar ,-inlər,-unlar,-ünlər;-i,-si*

*Kəmiyyət kateqoriyasının* adı türk dillərində müxtəlif adlarla adlanır.Məsələn,san (qaraçay-balkar,tatar);*köplük* (türkmən);*köplük san* (uyğur);*sayısı* (qaqauz);*son* (özbək); *koptik* (qazax) və s.Burada *son* sözü türk dillərinin bəzilərində çoxluq,miqdar məzmunu bildirir.

Türk dillərində kəmiyyət üç yolla meydana çıxır:

1) Leksik yolla:sürü,ordu,dəstə və s.2) Morfoloji yolla: diller (türkmən),samannar (qaqauz) və s.3) Sintaktik yolla:üç adam,bir neçə odam (özbək) və s.

Türk dillərində kəmiyyət şəkilçisi:

Azərbaycan və uyğur dillləri:*-lar,-lər.*Özbək dili:*-lar,-ler (türk,türkmən);-lar.*Qaqauz dili:*-lar,-lər,-nar,-ner.*Qırğız dili:*-lar,-ler,-lor,-lör,-dar,-der,-dor,-dör,-tar,-ter,-tor,-tör.* Başqırd dili:*-lar,-lər,-nar,-nər (tatar);-lar,-lər,-tar,-tər,-dar,-dər,-zar,-zər.*Altay dili: *-lar,-ler,-lor,-lör,-tor,-tör,-dar,-der,-dor,-dör,-tar,-ter.*Yakut dili:*-lar,-lər,-lor,-lör,-tar.-ter,-tor,-tör,-dar,-der,-dor,-dör,-nar,-ner,-nor,-nör.*Qazax dili:*-lar,-ler,-tar,-ter,-dar,-der.*Qaraçay-balkar dili:*-la,-le.*

*Sifət* kateqoriyasını digər nitq hissələrindən fərqləndirən əlamətlərdən biri,həm də əhəmiyyətlisi onun dərəcə əlamətləridir.Sifətin dərəcə əlamətləri bir əlamət və ya keyfiyyətin digərinə nisbətən az və ya çoxluğunu,bir sözlə əlamət və keyfiyyətin dərəcəsini bildirməyə xidmət edir.

*Adi dərəcə* semantik cəhətdən əlamət,keyfiyyət və s.xüsusiyyətləri ifadə edir.Heç bir şəkli əlaməti yoxdur.Məs.:*qırmızı,yaxşı,ağıllı (Azərb.);ulı,yaqşı,təze (türkmən);ok,şux, şod (özbək);kök,kara,uzun (uyğur);kalın,yuka (tatar);güzel,büyük,uzun (türk)* və s.

*Müqayisə dərəcəsində* iki və ya çox,eyni keyfiyyətli əşyanın müqayisəsi zamanı müqayisə dərəcəsi meydana çıxır.

*Yaxşırak,tezrak (özbək);akrak,ajırak (türkmən);əskirək,yaxşirak (uyğur);suluuraak, kızılıırak (qırğız);jaksılau,aktau,bozğıl(qazax)* və s.

*Üstünlük dərəcəsi* keyfiyyətin üstün pilləsini göstərməyə xidmət edir.

*Ən gözəl,çox gözəl (Azərb.);çım qızıl,örən akıllı (türkmən);en paalı,pek qözəl (qaqauz);qayet güzel,pek küçük (türk)* və s.

*Kiçiltmə dərəcəsi* əşyada müəyyən bir əlamətin bu və ya digər miqdarda az olduğunu göstərməyə xidmət edir.Məs.*açıq-yaşıl,açıq qırmızı,ala-qaranlıq (Azərb.);aksıl, karaltım,sarqılt (tatar);akuç.köküç,karamtu (uyğur)* və s.

*Çoxaltma dərəcəsi* sifətlərin sonuna -ca,-cə şəkilçisinin qoşulması ilə meydana çıxır.Məs.:*xırdaca,körpəcə,qısaca* və s.

*İntensif forma* əsasən *m,p,r,s* ünsürlərinin köməyi ilə meydana çıxır.Məs.: *sapsarı,qapqara,bomboz (Azərb.);apajı,tupturşı,apak (yürkmən); yamyaşil, kopkora (özbək);tertemiz,bomboz,apaçık (türk)* və s.

*Saylar* müasir türk dilində müxtəlif adlarla adlanır.Məsələn,*say (Azərb.);sayılık (qaqauz);san (tatar,tuva,türkmən,uyğur);son (özbək);son atooç (qırğız);san esim (qırğız);sayı adı,ismi adet (türk)* və s.

Türk dillərində müxtəlif fonetik variantlarda işlənən *bir,iki, üç,dörd, beş, altı, yeddi, səkkiz,doqquz,on,iyirmi,otuz,qırx,əlli,altımış,yetmiş,səksən,doxsan,yüz,min* saylarının etimalogiyası barədə müxtəlif fikirlər mövcuddur.

*Sıra saylar:-ıncı,-inci,-uncu,-üncü,-ncı,-nci,-ncu,-ncü (Azərb.);-ınjı,-inji,-unju,-ünjü,-njı,-nji,-nju, -njü (türkmən) ;-ıncı,-inci,-uncu,-üncü(qaqauz,türk);-nşı,-nşi,-nşu,-nşü (qaraqalpaq); -nci,-inci (özbək,uyğur);-meş (çuvaş);-ıc,-iş,-us,-s (yakut); -kı,-ki,-ku,-kü,-qu,-qü (tuva)* və s.

Müasir türk dillərində əvəzliklər müxtəlif adlarla adlanır. Məsələn,*əvəzlik (Azərb.);aderlik (qaqauz);esimdik (qazax);atatooç (qırğız);almaşlıq (tatar) ;çalışma (türkmən);olmoş (özbək);almaş (uyğur);adil,zamir (türk)* və s.

*Şəxs əvəzlikləri. Mən,sən,o;biz,siz,onlar (Azərb.);ben,sen,o;biz,siz,onlar (türk);men, sen,ol;biz,siz,olar (türkmən);bən.sən.o;biz,siz,onnar (qaqauz);men,sen,ol;biz,siz,olar (ka raim);men,sen,u;biz,siz,ular (özbək);min,sin,ul;bez,sez,alar (tatar);mən,sən.u;biz,siz,ular (uyğur);men,sen,ol;biz,siz,olar (qaraqalpaq);men,sen,ol;biz,siz.ala (qaraçay-balkar);mən, pis,ol;sən,siz,olar (altay);epe,esi,val;epir,esir,vosem (çuvaş)* və s.

*İşarə əvəzlikləri. O,bu,elə,belə,həmin (Azərb.);bu,o,şu,belə,elə,öbür,butakım (qaqauz) ;bu,şu,o (türk);bu,şu,u,uşa (özbək);ol,bul,usı,usu,sol (qaraqalpaq);bül.osı,ol,sol (qazax); u,bu,şu (uyğur);bu/bul,uşpu,uspu,oşol (karaim);bu,şu,ul (tatar)* və s.

Türk dillərinin morfoloji quruluşunda zərf  və feillər də xüsusi yer tutur.Feilin morfoloji quruluşu isə daha zəngindir.

Türk dillərində feilin zəngin kateqoriyaları və xüsusiyyətləri vardır.Türk dillərində feilin təsir,növ,təsdiq və inkar,zaman,şəxs kateqoriyaları,təsrif formaları vardır.

*Təsir kateqoriyası* türk dillərində müxtəlif terminlərlə adlanır.Məsələn,təsirli və təsirsiz feillər (Azərb.);utimli və utimsiz fellar (özbək);qeçiryən və qeçirmeyən işlikliklər (türkmən);küçeme fiqil və küçemsez fiqil (tatar) və s.

Türk dillərində təsirsiz feillərdən təsirli feil düzəldən şəkilçilər bunlardır: *-dır,-dir.-dur,-dür;-ıt,-t;-ır,-ir,-ur,-ür;-ar.-ər;-ız,-iz.-uz,-üz;-dar,-dər* və s.Məsələn,*qüldir,çıkar.yatır, ürküz,aqart,dönder,akıt* və s.

*İnkarlıq kateqoriyası*nın morfoloji əlaməti bunlardır:*-ma,-me (türkmən);-ma,-me,-may,-mey (qaraçay balkar);-an (çuvaş)* və s.

Türk dillərində inkarlıq deyil,yox,nə sözləri ilə də yaranır.Məsələn,*qidesi yok (türkmən);yazacaq tüqel (tatar);na ukidi,na yozdi (özbək)* və s.

*Növ kateqoriyası.*Türk dillərində feilin məna növləri aşağıdakılardır:*məlum,məchul, qayıdış,qarşılıq,icbar növ.*Feilin növləri türk dillərində müxtəlif adlarla adlanır:*növ-məlum,məchul,qayıdış,qarşılıq,icbar (Azərb.);dereje-düyp,özlük,qaydım,şəriklik,yükletme (türkmən);daraja-anik,majkul,uzlik,birqalik,opttirma (özbək)* və s.

*Məlum növ*ün morfoloji göstəricisi yoxdur.Məsələn,*aldım,qördük (türkmən);qelerim, qeleriz (qaqauz)* və s.

*Məchul növ* feillər təsirli feillərə *-ıl,-il,-ul,-ül;-ın,-in,-un,-ün,-n* şəkilçilərinin artırılması ilə əmələ gəlir.Məsələn,*utirilsin (özbək);silkinmek,övünmek (türkmən)* və s.

*Qayıdış növ* feillər təsirli feillərə*-ıl,-il,-ul,-ül;-ın,-in,-un,-ün,-n* şəkilçilərinin artırılması ilə əmələ gəlir.Məsələn,*taranmok,yuvinmok (özbək);söylenmek (türk);juyunmak (uyğur);djuvınmak (qaraçay-balkar)* və s.

*Qarşılıq növ* feillər –ış,-iş,-uş,-üş,-ş şəkilçiləri ilə əmələ gəlir.Məsələn,*qülüşmek, dövüşmek(türkmən);tartişmak (uyğur);uruşmak (qaraçay-balkar)* və s.

*İcbar növ* feillər təsirli feillərə -dır,-dir,-dur,-dür,-t;-ır,-ir,-ur,-ür;-ar,-ər şəkilçilərinin qoşulması ilə yaranır.Məsələn,*aldırmak.anlatmak,süpürtmek (türkmən);susdurmaa (qaqauz);içərmək (uyğur);sanat (yakut)* və s.

Feilin zamanları üç yerə ayrılır:keçmiş,indiki, gələcək zaman.

*Keçmiş zaman* türk dillərində *-dı,-di,-du,-dü;-mış,-miş,-muş,-müş;-ıb,-ib,-ub,-üb (Azərb.);-dı,-di;-mış,-miş (türkmən);-dı,-de,-tı,-te (tatar);-di;-ıb (özbək)* şəkilçiləri ilə yaranır.Məsələn,*qeldim (türkmən);bardıqız,jitte (tatar);durmuşuz (türk)* və s.

*İndiki zaman-ır.-ir,-ur.-ür (Azərb.);-yar.-yər (türkmən);-a,-e,-y (qazax)* və s. şəkilçilərlə əmələ gəlir.Məsələn,*alyarın (türkmən);barasın,barasındar (qazax)* və s.

*Gələcək zaman–acaq,-əcək;-yacaq,-yəcək;-ar,-ər (Azərb.)-jak,-jek;-ar,-ər (türkmən); -ajek,-ejek;-ar,-er (kumuk)* və s. şəkilçilərlə yaranır.

*Feilin təsriflənməyən formalar*na türk dillərinin hamısında tam formalaşmış *əmr, xəbər,vacib,arzu,şərt* və *lazım* şəkilləri daxildir.

*Feilin təsriflənməyən formaları* bunlardır:məsdər,feili sifət,feili bağlama.

**4.2.2.Türk dillərinin sintaktik quruluşu**

Türk dillərinin sintaktik quruluşunda ciddi fərqlər yoxdur.Bu dillərin sintaktik quruluşu ilə başlı xüsusiyyətləri belə qruplaşdırmaq olar.

*Oğuz qrupu türk dillərində* birinci,ikinci və üçüncü növ təyini söz birləşmələri işlənir. Məsələn,*yaşıl yarpaq (Azərb.);serin su,iyi günler (türk);eni ev (türkmən);tarixi dokument (türkmən)* və s.İkinci növ təyini söz birləşmələri.Məsələn,*sinif rəhbəri (Azərb.); deniz suyu (türk);mektep müdiri (türkmən)* və s.Üçüncü növ təyini söz birləşməsi.Məsələn,*məınim dostum (Azərb.);havanın sıcaklığı (türk);menim qalamim (türkmən);kolxozun kırları (tarla) (qaqauz)* və s.Cümlə üzvlərinin sırası bir qayda olaraq belə işlənir:mübtəda əvvəldə,xəbər sonda,təyin təyin etdiyi üzvdən əvvəl,tamamlıq və zərflik isə xəbərdən əvvəl işlənir.Bəzən qaqauz dilində bu qaydalar qeyri-türk dillərinin (rumın,moldav) təsiri ilə bu qaydalar pozula bilir və xəbər mübtədadan əvvələ,tamamlıq isə xəbərdən sonraya keçir.Məsələn,*Oturup onnar yannaşık xep bir partada xer sıra savaşerlar biri birinə eni bişey söölüməə.Süliyim birkaç laf kendi yaşamam çin.*

*Qıpçaq qrupu türk dillərinin sintaktik quruluşu:*Bir qayda olaraq mübtədanın əvvəldə,xəbərin sonda işlənməsi,təyinin mübtədanın,tamamlığın və zərfliyin xəbərin yanında olması normal haldır.Məsələn,*Mağa oku gerek (qazax);İt ürer,kerpen köşer (qazax);Eger een (sən) gelsen,biz riza bolariz (şad olarıq) (qazax);Sen bu qun teatrqa barasın (qırğız);Caz qeldi da,koş çıxtı (qırğız);Bulqar qrupu türk dillərinin sintaktik*

*quruluşu:*Söz birləşmələri,sadə və mürəkkəb cümlələr ümumi qanunauyğunluq əsasında formalaşmışdır. Məsələn,*ukıqan (sayılan) kişe (Kazan-tatar);Minem anda barasım yuk (Kazan-tatar);kitab ukı (oxumaq) (başqırd);Küpdən aldım min ul xattı (Mən o məktubu çoxdan aldım) (başqırd);altın ay (karaim);Tuyrat öraqim ki,artıq görüşmyabiz (Ürəyimə damıb ki,artıq görüşməyəcəyik) (karaim)* və s.

*Karluq-uyğur qrupun türk dillərinin sintaktik quruluşu:*Söz birləşmələri,sadə və mürəkkəb cümlələr başqa türk dillərində olduğu kimidir.Məsələn,*Boğda bulbullar sayramakda (özbək);Biz sayahatni davam gildik (uyğur);Biz maşiniğa olturup kəttuk (uyğur)* və s.

*Uyğur-oğuz qrupu türk dillərinin sintaktik quruluşunda* söz birləşmələri,cümlə və onun növləri,başlıca xüsusiyyətləri digər türk dillərində olduğu kimidir.Məsələn,*çoon ağac (xakas);İdi sağınğan Xoryat apsax (belə düşünürdü) (xakas);ak xar (tuva);Xovu kucu matpadak,xostuk ırın ırlaalak (Oxuyan çöl quşu hələ öz azad nəğməsini oxumayıb) (tuva).*

*Çuvaş və yakut dillərinin sintaktik quruluşu* türk dillərinin sintaktik quruluşuna müvafiqdir.Məsələn,*xulara kurap (şəhərdə yaşamaq) (çuvaş);Pitex itles teter pulsan, kalasa nama pultaratan(çox dinləmək istəyirsən,danışa bilərəm) (çuvaş)* və s.

**Ədəbiyyat**

1.B.Xəlilov.Türkologiyaya giriş.Bakı,"Bakı Çap Evi",2013

2.İ.Kazımov.Türk dillərinin müqayisəli fonetikası.I c.Bakı,2010

3.İ.Kazımov.Türk dillərinin müqayisəli leksikası.II c.Bakı,2011